AZƏRBAYCAN RESPUBLİKASI
SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR)
TƏŞKİLATLARI
MİLLİKONFEDERASİYASI

NATIONAL CONFEDERATION
OF ENTREPRENEURS
(EMPLOYERS)
ORGANIZATIONS OF
AZERBAIJAN REPUBLIC

**10.07.2018**

# MƏLUMAT BÜLLETENİ

## SAHİBKARLARIN NƏZƏRİNƏ

Hörmətli sahibkarlar!

İyulun 1-dən Qida Təhlükəsizliyi Agentliyi sertifikatlaşdırma və qeydiyyatı "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində aparır. Sizin "Bir Pəncərə"nizdə aşağıda qeyd olunanlar mümkündür:

1. Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrindən çıxarışın verilməsi
2. Reyestrdən çıxarış itirildikdə yaxud zədələndikdə dublikatın verilməsi
3. Qeydiyyata alınmış subyektlərin reyestr məlumatlarında fəaliyyət sahəsindən asılı olaraq baş verən dəyişikliyin edilməsi
4. Təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsi
5. İxrac edilən heyvan, heyvan mənşəli məhsullar, xammal, yem və yem əlavələrinə beynəlxalq baytarlıq sertifikatının verilməsi
6. Qida təhlükəsizliyi sertifikatının verilməsi
7. Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı ilə məşğul olan istehsal və emal müəssisələrinə təsdiqedici kod nömrəsinin verilməsi

Bakı şəhəri Landau küçəsi 16 ünvanında (Cavid Parkının yaxınlığında) Sizin "Bir Pəncərə"niz olmaqdan məmnun olardıq.
"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi sahibkar məmnuniyyəti, şəffaflıq, rahatlıq və operativlik prinsiplərinə uyğun işləyir.

---

TƏMİZ ŞƏHƏR ASC iş adamlarını açıq tenderə dəvət edir:
Tender 1 lot üzrə keçirilir:
Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.
Tender proseduru «Dövlət satınalmaları haqqında» qanuna uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **2018-07-23** 15:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **2018-07-30** 15:00 qədər Bakı şəhəri, Xocalı pr. 55 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların təklifləri 2018-07-31 18:00 tarixində Xocalı pr.55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. (Əlaqələndirici şəxs :Qüdrətov Tural, telefon : (012) 464-41-11) ünvanından ala bilərlər .
Ətraflı məlumatı keçiddən əldə etmək olar.

| | |
|---|---|
| **Tarix** | Çin Beynəlxalq Ticarət Palatası (CCOİC) iş adamalrını İpək Yolu Beynəlxalq Ticarət Palatasının konfransında iştirak etməyə dəvət edir. Konfrans mədəniyyət sənayesi sahəsində İpək Yolu boyu yolunca yerləşən ölkələr arasında əməkdaşlıq və mübadilənin təşviqi üçün nəzərdə tutulmuş qlobal tədbirdir. Milli və regional biznesə dəstək təşkilatları və İpək Yolu ölkələrinin səfirlik və konsulluqların nümayəndələrinin dəvət olunduğu və 100-ə yaxın nümayəndə və ekspertin iştirakı gözlənilən konfransda mədəni və ticarət əməkdaşlığı üzrə əsas layihələr müzakirə ediləcəkdir. Dəyirmi masanın mövzusu İpək Yolu ölkələrində "Sənayedə mübadilələrin gücləndirilməsi üçün əməkdaşlıq mexanizminin qurulması"dır.<br>Qonaqlara təklif edilir:<br>4 ulduzlu oteldə qonaqlamaı;<br>Hava limanında qarşılama və daxili nəqliyyat;<br>Son qeydiyyat tarixi: **31 iyul 2018-ci il.** |
| 20 sentyabr 2018 | |
| **Keçirildiyi yer** | |
| Dunhuanq, Çin | |
| **Əlaqə üçün** | |
| Zhou Xi, Luo Lei | |
| Telefon: 010-82217246, 82217240<br><br>Konfransda iştirakda maraqlı olduğunuz təqdirdə zhouxi@ccoic.cn, luolei@ccpit.org elektron ünvanları ilə əlaqə saxlamağınız xahiş olunur | |
| **SƏRGİLƏR** | |
| **Tarix** | Hindistanın Əl işləri İxracının Təşviqi Şurasının təşkilatçılığı ilə Hindistan Expo və Mart Sərgi Mərkəzində **11-ci Hindistan Zərgərlik və Aksessuarlar sərgisi** keçiriləcək. Sərgidə üç məhsul kateqoriyası - moda zərgərlik, moda aksesuarları, moda materialları nümayiş etdiriləcək.<br><br>Sərgidə iştirak etməkdə maraqlı olan idxalçı sahibkarların ekonom klassla uçuş bileti (MDB ölkələrindən olan şəxslər üçün 800.00 ABŞ dolları məbləğində) və Yeni Dehlidə iki gecə mehmanxanadaqalma xərcləri təşkilatçılar tərəfindən qarşılanır. Sərgi haqqında daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı keçiddən istifadə edə bilərsiniz: www.epch.in/ifjas |
| 16-18 iyul 2018 | |
| **Keçirildiyi yer** | |
| Boyük Noida şəhəri, Hindistan | |
| **Əlaqə üçün** | |
| Nurlana Həsənova<br>nhasanova@ask.org.az<br>465 72 43 (112) | |
| **Tarix** | Bu il ilk dəfə olaraq Vladivostok şəhərində Beynəlxalq Uzaq Şərq Dəniz Sərgisi (MDMS) keçiriləcək. Əsas tədbirlər Uzaq Şərq Federal Universitetinin kampusunda keçiriləcək. MDMS, innovativ gəmiqayırma, beynəlxalq hərbi-dəniz əməkdaşlığı, Rusiyanın uzaq şərqindəki |
| 26-28 iyul 2018 | |
| **Keçirildiyi yer** | |
| Vladivostok, Rusiya | |

| | |
|---|---|
| | gəmiqayırma qrupunun Asiya-Sakit okean regionunun gəmiqayırma sahəsindəki inteqrasiyasına hərs olunmuş ən böyük iş fəaliyyəti olacaqdır.<br><br>MDMS Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək. Bu ilki sərgidə Vyetnam, Hindistan, İndoneziya, Çin, Malayziya, Cənubi Koreya və Yaponiyadan rəsmi nümayəndə heyyətlərinin iştirakı gözlənilir.<br><br>Proqrama Rusiya Federasiyasının hökumət nümayəndələrinin, rus və xarici bisnes nümayəndələri həmçinin elm xadimlərinin iştirakı ilə elmi-praktiki konfransların keçirilməsi daxildir.<br><br>Ətraflı məlumatı www.ifemshow.org saytından əldə etmək olar. |
| **Tarix**<br>25-31 avqust 2018<br>**Keçirildiyi yer**<br>Tehran, İran<br>**Əlaqə üçün**<br>Nurlana Həsənova<br>nhasanova@ask.org.az<br>465 72 43 (112) | Azərbaycanlı sahibkarlar **İran Əl Xalçası** sərgisinə dəvət olunurlar. Dəvət olunan şəxslərdən 3 nəfərin 2 gün ərzində İran daxilində bütün səfər xərcləri sərgi təşkilatçıları tərəfindən ödəniləcəkdir.<br><br>Sərgidə iştirak etmək niyyətində olan şəxslərin **15 avqust 2018-ci il** tarixinədək www.incc.ir saytında qeydiyyatdan keçməyi, daha sonra ASK-ya müraciət etməyi tələb olunur. |
| **Tarix**<br>8-11 sentyabr 2018<br>**Keçirildiyi yer**<br>Xiamen, Çin<br>**Əlaqə üçün**<br>4371142 (daxili 125, 136)<br>mkhalafov@azpromo.az | Çinin ən böyük sərgilərindən biri hesab olunan **20-ci Çin İnvestisiya Ticarət Beynəlxalq Sərgisin**ə 100-dən çox ölkədən yüz min ziyarətçinin gələcəyi gözlənilir.<br><br>Çinin 300 şəhərindən məmurlar, yerli və xarici mətbuat işçilərinin sərgidə iştirakı nəzərdə tutulur. |
| **Tarix**<br>9-12 sentyabr 2018<br>**Keçirildiyi yer**<br>Quyyan, Çin<br>**Əlaqə üçün**<br>Li Qiaozhi: 0086 851 88555391; 0086 18300887520<br>Yao Jinwen: 0086 18798085872<br>iqiaozhi822@163.com | 8-ci Çin Beynəlxalq Spirtli içkilər sərgisi Çində artıq 7 dəfə uğurla həyata keçirilmişdir və hər il 40 ölkədən, müxtəlif regionlardan 1000 nəfərdən çox iştirakçı 200,000 nəfər ziyarətçi sərgiyə qatılır. Sərgidə iştirak etmək istəyən sahibkarlardan **20 avqust 2018-ci** il tarixinə qədər aşağıda qeyd olunan əlaqələndirici şəxsləri məlumatlandırılması xahiş olunur. |
| **Tarix**<br>6-11 noyabr 2018 | 6 qitə,140 ölkə, 100 000 alıcı İstanbulda görüşəcək! |

| | |
|---|---|
| **Keçirildiyi yer**<br>İstanbul, Türkiyə<br>Ətraflı məlumatı [www.furnitureistanbul.com.tr](http://www.furnitureistanbul.com.tr) saytından əldə etmək olar. | **İstanbul Mebel Sərgisi** beynəlxalq arenada türk mebel sənayesinin rəqabət qabiliyyətini və ixracat həcmini artırmaqla yanaşı yeni bazarlara çıxış imkanı yaratmaq məqsədilə təşkil olunur. Sərgi ixracat həcmini artırmaq və aparıcı mebel brendləri ilə yeni biznes əlaqələri yaratmaqla bərabər mebel istehsalçılarına brendə çevrilmək imkanları üçün əla fürsət təklif edir.<br><br>Aparıcı brendlər arasında yer alın!<br><br>İstanbul Mebel Sərgisində iştirak edən mebel istehsalçıları Türkiyədə aparıcı brendlər arasında yer alacaq və beynəlxalq bazarda bizneslə məşğul olmaq imkanları qazanacaq.<br><br>Sərgi iştirakçıları öz brend və məhsullarının beynəlxalq təşviqini aparmaq habelə 15 il mebel sərgilərini təşkil etməktə təcrübəsi olan CNR Holdinqin yerli və xarici alıcılar barədə məlumat bazasından yaralanmaq imkanı əldə edəcəklər. |
| **Tarix**<br>07-09 noyabr 2018<br>**Keçirildiyi yer**<br>Kiyev,Ukrayna | Sizi Ukraynada avtomobil yollarının və körpülərin layihələndirilməsi, tikilməsi və istismarı ilə bağlı ən böyük və yeganə sərgi olan - 16-cı Beynəlxalq Ticarət Sərgisində iştirak etməyə dəvət edirik. "AvtodorExpo" sərgisi sektor liderlərini bir araya gətirəcək. Bundan əvvəlki sərgidə İspaniya, Rusiya, Belarus, Almaniya, Fransa, İtaliya, Polşa, Türkiyə, Çexiya Respublikası, Çin və Pakistan kimi ölkələrdən 156 iştirakcı qatılıb. Sərgi peşəkarlar üçün əməkdaşlıq və ədalətli iş münasibətlərini inkişaf etdirmək imkanları yaradacaq .Əlavə məlumatı [www.avtodorexpo.ua](http://www.avtodorexpo.ua) saytından əldə etmək olar. |
| **Tarix**<br>11-17 noyabr, 2018<br>**Keçirildiyi yer**<br>Əbu-Dabi, BƏƏ | **ADIPEC - Əbu-Dabi Beynəlxalq Sərgi-Konfransı** neft və qaz sənayəsində dünyanın ən vacib tədbirlərindəndir.<br><br>Ötən il sərginin 4 günü ərzində 10.4 milyard dollar dəyərində biznes müqavilələr bağlanılıb. 2018-ci ildə bu rəqəmin artacağı gözlənilir. İştirakçıların 82%-i qərar qəbul edən şəxslər, alıcılar və təsir edici şəxslər təşkil edir ki, bu da tədbirin biznes üçün real imkanlar yaratması deməkdir.<br><br>ADIPEC dünyanın əhəmiyyətli neft və qaz sərgilərindən biridir. Sərgidə dünyanın 100-dən çox ölkəsindən insanlar iştiirak edir. Dörd gün ərzində 20 milli neft şirkəti, 18 transmilli neft şirkəti biznes və yeni əməkdaşlıq imkanlarını müzakirə edəcəklər. Sərgidə 30 ölkənin pavilyonu quraşdırılacaq və 2200-dən artıq şirkət təmsil olunacaq. Ətraflı məlumatı [www.adipec.com](http://www.adipec.com) saytından əldə etmək olar. |
| **Tarix**<br>22-24 noyabr 2018 | Əmlak Məsələləri Dövlət Komitəsi, Türkiyənin "ElanExpo" şirkətinin birgə təşkilatçılığı ilə **Azərbaycanın Beynəlxalq** |

| | |
|---|---|
| **Keçirildiyi yer** | **Daşınmaz Əmlak və İnvestisiya Sərgisi - "RecExpo" -** keçiriləcək.<br><br>Əlavə məlumatı keçiddən əldə edə bilərsiniz. |
| Bakı Ekspo Mərkəzi | |
| **Əlaqə üçün** | |
| Nurlana Həsənova<br>nhasanova@ask.org.az<br>465 72 43 (112) | |
| **SEMİNAR** | |
| **Tarix** | Sizi EBBS Oman seminarına dəvət edirik. Biznnes tərəfdaşlarınızın sayını artırın və 2018/2019-cu illərdə EBBS seminarlarında ən yaxşı qlobal təhsil işçiləri və agentlikləri arasında olun. EBBS seminarına qatılın və Cənubi Asiya, Orsta Şərq, Çin və Türkiyədən olan mühüm agentlər və məsləhətçilərlə üz-üzə söhbət edin. Agentlərimiz və activ mütəxəssizlərimiz öncədən təstiq olunmuş prosedurlarla seşilmişdir.<br><br>16 İyul 2018-ci ilə kimi qeydiyyatdan keçənlər 30% endirim əldə edəcəklər. Əlavə məlumatı www.edufair.info saytından əldə edə bilərsiniz.<br>Əlaqə üçün: +359 2 9888 604 və ya +359 887 099 731<br>info@edufair.info<br>www.edufair.info |
| 22-24 oktyabr 2018 | |
| **Keçirildiyi yer** | |
| Maskat, Oman | |

Əlavə məlumat üçün Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına müraciət edə bilərsiniz.

---